*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1*
*Səhifə: 208-213*
*https://doi.org/10.59849/2663-4406.2024.1.208*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

## XX əsrin əvvəllərində satirik mətbuatda qadın azadlığı problemi

**Şahanə Məmmədova (Köçərli)**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: shahanamammedovah@gmail.com

**Annotasiya.** XX əsrin əvvəllərində nəşrə başlayan "Molla Nəsrəddin", "Zənbur", "Mirat", "Arı", "Kəlniyyət", "Babayi-Əmir" kimi satirik jurnallar Azərbaycan qadınlarının hüquqsuzluğu, ağır və dözülməz həyat şəraiti, təhsildən və ictimai işlərdən uzaq düşmələri və s. problemləri öz səhifələrində işıqlandırır, qadınların azadlığı uğrunda qətiyyətli şəkildə mübarizə aparırdılar. "Molla Nəsrəddin" və onun ardıcılı olan digər satirik jurnallar hər şeydən əvvəl qadınlara qarşı olan qeyri-insani münasibətin dəyişdirilməsini, onlara kişilərlə bərabər hüquqların verilməsini, məruz qaldıqları ağır işgəncələrin sona çatmasını istəyirdilər. Satirik mətbuatda azyaşlı qızların zorla ərə verilməsi, qadınlara qarşı şiddət və zorakılıq, çoxarvadlılıq, çadra və s. problemlər tənqid olunurdu. Məlumdur ki, bu problemlərdən əsas çıxış yolu qadınların təhsil alaraq maariflənməsi və ictimai işlərə cəlb olunması idi.
**Açar sözlər:** satirik jurnal, qadın azadlığı, felyeton, karikatura

**Məqalə tarixçəsi:** göndərilib – 15.03.2024; qəbul edilib – 01.04.2024

## The issue of women's freedom in the satirical press at the beginning of the 20th century

**Shahana Mammadova (Kocharli)**
Institute of Literature named after Nizami Gancavi of ANAS
E-mail: shahanamammadovah@gmail.com

**Abstract.** Satirical magazines such as "Molla Nasreddin", "Zanbur", "Mira"t, "Arı", "Kalniyyat", "Babayi-Amir", which began to be published at the beginning of the 20th century, talked about the lack of rights, difficult and unbearable living conditions of Azerbaijani women, and their falling away from education and public affairs. They highlighted these problems on their pages and fought resolutely for women's freedom. *Molla Nasreddin* and other satirical magazines that followed it, first of all, wanted to change the inhuman attitude towards women, give them equal rights with men, and end severe torture they were subjected to. The forced marriage of young girls, violence against women, polygamy, veiling and other problems were criticized in the satirical press. In fact, the main way out of these problems was women's education and involvement in social work.
**Keywords:** satirical magazine, women's freedom, feuilleton, caricature

**Article history:** received – 15.03.2024; accepted – 01.04.2024





### Giriş / *Introduction*

Azərbaycanda XIX əsrin sonu – XX əsrin əvvəllərində başlayan qadın azadlığı hərəkatı (1903-cü ildə "Şərqi-rus" qəzetində ilk dəfə olaraq Azərbaycan qadının azadlığı məsələsinin qaldırılması, 1901-ci ildə Hacı Zeynalabdin Tağıyevin Bakıda Qızlar məktəbini açması, 1911-ci ildə Azərbaycan milli mətbuatında ilk maarifçi qadın jurnalı olan "İşıq" jurnalının təsis olunması və s.) satirik mətbuat aləminə də öz müsbət təsirini göstərdi. XX əsrin əvvəllərində nəşrə başlayan "Molla Nəsrəddin", "Zənbur", "Mirat", "Arı", "Kəlniyyət", "Babayi-Əmir" kimi satirik jurnallar Azərbaycan qadınlarının hüquqsuzluğu, ağır və dözülməz həyat şəraiti, təhsildən və ictimai işlərdən uzaq düşmələri və s. problemləri öz səhifələrində işıqlandırır, qadınların azadlığı uğrunda qətiyyətli şəkildə mübarizə aparırdılar.

### Əsas hissə / *Main part*

Yuxarıda qeyd etdiyimiz kimi, 1911-ci ildə Xədicə Əlibəyovanın redaktorluğu ilə milli mətbuatımızda ilk maarifçi qadın jurnalı olan "İşıq" jurnalı fəaliyyətə başladı. Əsas məqsədi qadınlar arasında maarifçiliyi yaymaq olan jurnala qarşı mühafizəkar təbəqənin nümayəndələri tərəfindən etiraz səsləri ucalmağa başladı. Qadınların qarşısına keçilməz sədlər çəkən mühafizəkarlar satirik jurnalların tənqid hədəfinə çevrildi. Jurnalın nəşrindən təşvişə düşənlər "Arı" jurnalının 8 yanvar 1911-ci il tarixli 4-cü nömrəsində "Aşiq Kərəm" imzası və "Bir bu qalmışdı, bu da oldu" başlığı ilə çap olunmuş felyetonda öz sözləri ilə ifşa olunurdular: "Vaxseyyy! Dünyaya bax, gör nə qədər xarab olub ki, müsəlman arvadları da qazet-mazut çıxardır! Ay anam, ay bacım, arvad nədir, qazet nədir?! Sən arvadsən, get arvadlığuvun dalınca, otur evdə, yamaq-yırtıq ilə qurama qur. Yoxsa qazet yaz! Vallahi, bir tikəsində təqsir yoxdur! Bu təqsirlərin hamısı sənin özündədir ki, sənin kimilərə çörək verib saxlayır. Mən hərgah səni saxlayanın yerinə olsaydım, bir saat nədir, heç bir dəqiqə də sənin kimiləri saxlamazdım!" [3, s.98-99]

Qadınları kölə halına salanlar onların vəzifəsinin yemək bişirmək, uşağa baxmaq, yamaq-yırtıq tikmək kimi ev işlərindən ibarət olduğu fikrini müdafiə edərək maariflənmələrindən ehtiyat edirdilər: "Ax, Xədicə xanım, Xədicə xanım, o günə od düşdü, səni anon doğdu! Vaxseyyy! Birdən bunun yazdıqlarını arvadlarımız oxudu, onda başımıza nə kül tökərik?! Bizim arvadlara da bir belə hay gərək daxi, arvadlarımız birdən dönüb hamısı sotsalistdir, nə şoğəribdir, bundan oldu! Bəs biz nə elərik... Bəs bozbaşı kim bişirər?! Təndir üstə çörək yapmaq, kim yamaq-yırtıq eylər? Bular qalsun bir yanə, birdən uşağı tulladı ki, dəxi bəsdir, mən süd verdim, indi sən ver. Onda necə olar?!" [3, s.99]

Satirik mətbuat orqanları içərisində qadınların azadlığı uğrunda ardıcıl mübarizə aparan jurnallardan ən əhəmiyyətlisi "Molla Nəsrəddin" idi. Professor Nazim Axundov bu barədə yazırdı: "M.F.Axundovun yolunu davam etdirən "Molla Nəsrəddin" jurnalı qadınların ictimai mübarizə meydanına çıxması problemini inqilabi səviyyəyə qaldırmışdır" [1, s.33].

"Molla Nəsrəddin" və onun ardıcılı olan digər satirik jurnallar, hər şeydən öncə, qadınlara qarşı olan qeyri-insani münasibətin dəyişdirilməsini, onlara kişilərlə bərabər hüquqların verilməsini, məruz qaldıqları ağır işgəncələrin son bulmasını istəyirdilər. Bu baxımdan "Molla Nəsrəddin" jurnalının 21 aprel 1906-cı il tarixli 3-cü nömrəsində təsvir olunmuş karikaturaya nəzər salmaq lazımdır. Alman rəssamı İosif Rotterə məxsus karikaturada sol tərəfdə taxt üzərində uzanıb qəlyan çəkən bir kişi təsvir olunmuşdur. Onun yanında, taxtın aşağı sol küncündə ağlayan bir uşaq və sağ tərəfdən içəriyə daxil olan bir qadın təsviri verilmişdir. Qadının sol çiynində və sağ əlində su ilə dolu böyük bir dolça və arxa tərəfdən kürəyinə bağlanmış uşaq mənzərəsi diqqəti cəlb edir. Şəklin altında isə taxtda uzanan şəxsin dilindən bu sözlər verilmişdir: "Ay arvad, Allah sənə lənət eləsin, bu uşaq mənim baş-beynimi apardı, gəl bunu da götür, al dalına" [6, s.50].

Bu təsvir dövrün qadınlarına qarşı qeyri-insani, vəhşi münasibətin, çürük əxlaq və davranış tərzinin bariz nümunəsidir.

Elmin qadınlara heç bir faydası olmadığını, elm sahibi olmanın dinə zidd olduğunu iddia edən nadanlar qadınları daim müti vəziyyətdə saxlamaqla əsarətdən qurtulmalarına mane olurdular. C.Cabbarlının "Babayi-Əmir" satirik jurnalının 1915-ci il 26 avqust tarixli 19-cu nömrəsində "Qızıma" başlığı ilə çap olunmuş şeiri bu mövzuya bariz nümunədir. Şeirdə cahil ata qızına müraciət edərək deyir:

*Fikrini vermə nə elmə, nə də ürfanə, qızım!*
*Çoxdur elmin zərəri din ilə imanə, qızım!* [2]

Məktəbə gedib elm öyrənmək istəyən qızının onu el içində xəcil və rüsvay edəcəyinə inanan ata qızına belə məsləhət verir:

*Get bişir evdə, bala, düşbərəni, bozbaşını,*
*Verginən meylini xingalə, fisincanə, qızım!* [2]

"Arı" jurnalının 5 fevral 1911-ci il tarixli 8-ci nömrəsində isə "Dərdmənd" imzası və "Millət qabağa gələcək" başlığı ilə "İşıq" jurnalının təsisçilərinə müraciət olunaraq, "Yetimə öyüd verən çox olar, amma çörək verən az", "Bir gül ilən bahar olmaz" məsəlləri xatırladılır və kəndlərdə zülmət aləminə qərq olan minlərlə çarəsiz qadına yardım əli uzatmaları xahiş olunurdu: "Beş-üç xala-bacılar böyük şəhərlərdə şlyapalarının iynələrini uzadıb millət düzəltməkdən nə çıxar və xala-bacıların heç fikrinə düşərmi ki, kəndlərdə milyonlarca bacılar zülmət dəryasında əl çalırlar və nicat axtarırlar? Nə olar bizim millət düzəldən bacılarımız... özlərini yetirələr qıraq olanlara və əllərini uzadıb öz bacılarını xilas edələr" [3, s.170].

Bildiyimiz kimi, "Dərdmənd" imzası ilə dövri-mətbuatda çıxış edən müəlliflərdən biri də Ömər Faiq Nemanzadə olmuşdur. O, qadın azadlığı haqqında məqalə və felyetonları ilə "Molla Nəsrəddin" jurnalında dəfələrlə çıxış etmiş və bu problemi millətin inkişaf və tərəqqisi yolunda əsas manеələrdən biri kimi görmüşdür. Onun "Molla Nəsrəddin" jurnalının 13 oktyabr 1906-cı il tarixli nömrəsində "Cəhrəçi xala" imzası ilə çap etdirdiyi, Molla əmiyə müraciət formasında tərtib olunmuş "Bir arvadın cavabı" felyetonunda yazılır: "24-cü nömrənizdə yazırsınız ki, arvadlar pul hesabı bilmirlər. Bunu gərək siz heç yazmayaydınız. Arvadlar başına nə kül töksün, hansı məktəbdə arvadlara elmi-hesab oxudubsunuz ki, pul hesabı bilsinlər və bir də mən görüb və eşitmişəm ki, çox kişilər də pulu barmaqları ilə hesab edirlər və iyirmiyə iki on, yüzə iki əlli deyirlər" [6, s.245].

Göründüyü kimi, burada diqqəti çəkən məsələlərdən biri həmin dövrdə yalnız qadınların deyil, kişilərin də savadsızlığı problemi idi. Kişilər nadan və elmsiz olduqları üçün qadınların da inkişafına mane olurdular, əksinə bilik və dünyagörüş sahibi olanlar isə qadınların savadlanması və inkişafını dəstəkləyirdilər. Bunu görən cahil şəxslər onların da təhsil almasına qarşı çıxırdılar. "Molla Nəsrəddin" jurnalının 20 oktyabr 1907-ci ildə nəşr olunmuş 39-cu nömrəsində "Oğlanlarınızı oxutmayın" başlığı ilə verilmiş felyetonda Peterburq və Paris kimi şəhərlərin universitetlərində təhsil almış oğlunu evləndirməyə çalışan, lakin ona uyğun qız tapa bilməyən cahil atanın sonda verilmiş müraciəti diqqəti cəlb edir: "Əgər biz oğlanlarımızı oxutsaq, gərək qızlarımızı da oxudub onlar üçün əyal hazır edək. Onda gərək bizim də qızlarımız iyirmi, iyirmi iki yaşa kimi gedib oxuyalar, təkmil olalar ki, ülumi-aliyə tamam etmiş oğlanlarımıza layiq olalar. O biqeyrətliyi və günah əmri də ki biz etməyəcəyik ki, qızlarımız üzüaçıq gedib o payalərəcən oxusunlar. Pəs onda məndən sizə nəsihət: Oğlanlarınızı da oxutmayın" [6, s.645].

Eyni mövzuya "Kəlniyyət" jurnalının 8 iyun 1912-ci il tarixli 3-cü nömrəsində də toxunulmuşdur: "Sən deyirsən ki, biz qızlarımızı göndərək oxumağa, biz də sənin acığına heç oğlanlarımızı





da bundan sonra göndərmərik məktəbə. Qoy avam qalıb elmsiz də qız alsınlar. Onda görək kimin qızı yerdə qalar" [4, s.28].

Satirik mətbuatda azyaşlı qızların zorla ərə verilməsi, qadınlara qarşı şiddət və zorakılıq, çoxarvadlılıq, çadra və s. problemlər tənqid və müzakirə olunmaqla müəyyən bir çıxış yolu axtarılırdı. Məlumdur ki, bu problemlərdən əsas çıxış yolu qadınların təhsil alaraq maariflənməsi və ictimai işlərə cəlb olunması idi. Lakin yeganə çıxış yolu, şübhəsiz ki, bundan ibarət deyildi. Qadınların inkişafına mane olan cahil təbəqənin də maariflənməsi qarşıda duran əsas problemlərdən idi.

Qadınların azadlığını məhdudlaşdırmağa çalışanlar daha çox islam dini pərdəsi arxasında gizlənir və bundan öz xain məqsəd və əməlləri üçün istifadə edirdilər. "Mirat" jurnalının 2-ci nömrəsində "islam xirqəsi altında daldalanan vəhşilər"in qadınlara qarşı münasibəti heyvanlarla müqayisə olunur və üstünlük ikinci tərəfə verilirdi: "Çox vaxt görürsən ki, heyvanat bir-birilə bir neçə dəfə yola getmiyor. İki-üç gün yoldaşlıqdan sonra daha bir-birindən ayrılmaq istəmiyor. Təəccübdür ki, Molla Quam iki uşağın anasını şapalaq ilə vurub qovalıyor bayıra və heç kəsin də ona bir kəlmə söz deməyə haqqı olmıyor" [3, s.364].

Qeyd olunduğu kimi, satirik mətbuatın gündəmində olan məsələlərdən biri də çoxarvadlılığın tənqidi idi. Qadınların alqı-satqı obyektinə çevrilməsi, onlara əşya kimi yanaşılması bu münasibəti yaradanlara qarşı nifrət hissi oyadırdı. Bu cəhətdən "Kəlniyyət" jurnalının 10 avqust 1912-ci il tarixli 12-ci nömrəsində "Elan" başlığı ilə verilmiş mətn diqqəti cəlb edir: "On bir yaşından on beş yaşına kimi özümə hərəm eyləmək təqdir gözəl qızlar olsa, qəbul eyləyirəm. Çox artıq qiymətə dul övrətləri isə 12 yaşından 25 yaşına kimi qəbul eyləyirəm. Üçdən artıq ərə getməyənləri də şərtdir özgələri əlli manata aldıqları arvadı mən altı yüz manata alıram. Nə qədər gözəl olsalar, o qədər artıq pul verirəm" [4, s.105].

Çoxarvadlılığın diqqət çəkən və ikrah doğuran digər tərəfi isə saç və saqqalı ağarmış, nəvənəticə sahibi qoca kişilərin az yaşlı qızlarla evlənməsi idi. Səlyanda yaşayan "Bir yetimə qız"dan "Arı" jurnalına ünvanlanan məktub bu ürək dağlayan mənzərəni bütün çılpaqlığı ilə təsvir edir: "Arı dayı, nə qədər oturub-durub, dizlərimi qucaqlayıb, fikirləşib, baxıb görürəm ərimin evində məndən yaşı az olan uşaq xeylağı yoxdur. Amma hərdənbir çaşıb, uşaqlara qoşulub, mən də uşaqların atasına "dədə" deyirəm" [3, s.120].

Eyni problemin ifşasına "Zənbur" jurnalının 1909-cu il tarixli 4-cü nömrəsində "Bambılı" imzası ilə verilmiş şeir nümunəsində də rast gəlirik:

*Ay bala, dur get mənə bir arvad al,*
*Saqqal ağardı, mənə bir can gərək,*
*Ruhumu seyd etməyə bir səyyad al,*
*Ömür tükəndi, mənə canan gərək.*

*Kor olmasın bizim Pəri qarıtək,*
*Yanaqları bağçamızın narıtək,*
*Arıtdasın gündə bir taqarı tək,*
*Üç put unu yovurub yapan gərək.* [7]

Nəzm nümunəsində diqqəti çəkən digər bir cəhət isə qadınlara qarşı səhərdən-axşama kimi çalışan, əlləşib-vuruşan əmək aləti münasibətidir. Bu münasibət istər satirik mətbuatda, istərsə də digər mətbuat orqanlarında dövrün qabaqcıl ziyalılarını narahat edən ümdə məsələlərdən idi.

Azyaşlı qızların zorla qoca kişilərə ərə verilməsi və onların bədbəxt talelərinin qısa xülasəsi "Molla Nəsrəddin" in 28 aprel 1906-cı il tarixli 4-cü nömrəsində "Qız və nənə" başlıqlı şeir nümunəsində qızın nənəsinə sualı və Molla Nəsrəddinin qıza cavabı şəklində təsvir olunmuşdur. Qız nənəsinə müraciət edərək soruşur:

*Hansı səbəbdən üzünün dərisi,*
*Qırış-qırışdır çölü, içərisi?*
*Mənim üzüm də saralarmı, nənə,*
*Qırışarmı sənin kimi dərisi?* [6, s.56]

Nənənin xahişi ilə qızın sualına Molla Nəsrəddinin cavabı insanlığını itirmiş varlıqların dövrün azyaşlı uşaqlarına biçdiyi acı talenin qısa məzmunundan ibarətdir. Nənənin indiki vəziyyəti ilə qızın gələcək taleyi bir-birilə sıx bağlıdır:

*Bundan sonra dəxi günün qaradı,*
*Qızım, bu bir sağalmayan yaradı,*
*Ta indi gedəcək yerin haradı?*
*Dəxi bundan sonra tez qocalarsan.* [6, s.56]

Qadınlara qarşı düşmən münasibət yalnız qarşı cinsin nümayəndələri tərəfindən deyil, bir çox hallarda onların özləri tərəfdən meydana çıxırdı. Buna misal olaraq "Zənbur"un 20 mart 1909-cu il tarixli 2-ci nömrəsində "Evlərdə" başlığı ilə verilmiş dialoq nümunəsini göstərmək olar. Molla bacı və Bircə bacı arasında olan bu dialoqda əsas mövzu Bircə bacının gəlninin 6 dəfə ardıcıl olaraq qız övladı dünyaya gətirməsi və Bircə bacının bu məsələyə mənfi münasibətidir. Bir-birinin ardınca nəvələrinə Qızdönə, Qızbəs, Qızqayıt kimi adlar verən Bircə bacının bu hərəkəti onun cahilliyinin bariz nümunəsidir. Bircə bacı o qədər cahildir ki, nəvəsinin Sibirə belə getməyinə razıdır, təki Allah ona oğlan versin: "A Molla bacı, sən də belə danışırsan, heyif deyil oğlan?! Oğlanın bir tükün yeddi qıza vermənəm, təki Allah mənə oğul versin. Neynək, qoy Sibirə getsin" [7].

Qadınları qərq olduqları bataqlıqdan çəkib çıxarmağa çalışan satirik mətbuat müəllifləri onları həmrəy olmağa və azadlıqları uğrunda mübarizəyə səsləyirdilər:

*Biz nə qədər səbr eləyək zillətə,*
*Cövrü cəfavü ələmü möhnətə?*
*Haydı, qadınlar, çataq hürriyyətə!*
*Qalsa bu dövran, çətindir, çətin!* [2]

Digər mətbuat orqanlarında olduğu kimi, satirik mətbuatda da müzakirə obyektinə çevrilən məsələlərdən biri çadra məsələsi idi. Bu problemin müzakirə və tənqidinə "Molla Nəsrəddin", "Zənbur" kimi satirik jurnallar daha çox yer verirdi. Professor Vüqar Əhməd bu barədə yazır: "Qadına münasibət məsələsi "Zənbur"da geniş işlənmişdir. Jurnal çadra əleyhinə çıxır, qadınların savadlanması məsələsini qoyurdu. Bu məsələdə "Zənbur" öz müəllimi "Molla Nəsrəddin" ilə daha yaxından birləşirdi. "Axirət xəbərləri" başlıqlı felyetonunda jurnal çadranı dustaqxanaya bənzədirdi" [5, s.155].

## Nəticə / *Conclusion*

Beləliklə, bütün bu qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, satirik mətbuat orqanlarının qadınları öz hüquq və azadlıqlarını dərk etməyə, zülmə boyun əyməməyə, vahid düşmənə qarşı həmrəy olmağa səsləməsində məqsəd, yalnız qadınların maariflənməsi və inkişafı deyil, həmçinin millətin tərəqqisi ideyası dayanırdı. Çünki yalnız təhsilli qadın təhsilli nəsil yetişdirə və milləti cəhalət girdabından xilas edə bilərdi.





## Ədəbiyyat / *References*


1. Axundov, N. "Azərbaycan satira jurnalları". – Bakı: – 1968.
2. "Babayi-Əmir". – 1915, № 19, № 17.
3. Əhməd, V., Rzayeva, D. "Arı" və "Mirat" jurnalları yeni əlifbada. – Bakı, – 2021.
4. Əhməd, V., Rzayeva, D. "Kəlniyyət" satirik jurnalı yeni əlifbada (1912-1913). – Bakı, – 2022.
5. "Filologiya və sənətşünaslıq", – 2021, № 2.
6. "Molla Nəsrəddin", I cild. – Bakı, – 2017.
7. "Zənbur". – 1909, № 4, № 2.


## Проблема женской свободы в сатирической прессе начала XX века

**Шахана Мамедова (Кочерли)**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: shahanamammedovah@gmail.com

**Резюме.** Сатирические журналы, такие как «Молла Насреддин», «Занбур», «Мират», «Ары», «Келнийят», «Бабайи-Эмир», которые начали выходить в начале 20 века, говорили о бесправии, тяжелых и невыносимых условиях жизни азербайджанских женщин, их отпадении от образования и общественных дел. Они освещали эти проблемы на своих страницах и решительно боролись за свободу женщин. «Молла Насреддин» и последовавшие за ним другие сатирические журналы, прежде всего, хотели изменить бесчеловечное отношение к женщинам, дать им равные права с мужчинами, положить конец жестоким пыткам, которым они подвергались. Принудительные браки молодых девушек, насилие в отношении женщин, многоженство, ношение чадры и другие проблемы подверглись критике в сатирической прессе. По сути, основным выходом из этих проблем было образование женщин и привлечение их к социальной работе.
**Ключевые слова:** сатирические журналы, женская свобода, фельетон, карикатура